**UOT 94(479.24), UOT 94**

**SƏBİNƏ ALIYEVA**
*BDU-nun Tarix fakültəsinin doktorantı*
**sabinalyeva@mail.ru**

# NADİR ŞAH ƏFŞAR İMPERİYASININ OSMANLI İMPERİYASI İLƏ ƏLAQƏLƏRİ TARİXİ TƏDQİQATLARDA

*Nadir Şah 1736-cı ildə özünü şah elan edib Əfşar dövlətinin əsasını qoyduğu zaman Osmanlı Sultanı I Mahmud hakimiyyətdə idi. Məhz bu zaman iki türk imperiyası arasında yeni ərazi ələ keçirmək uğrunda mübarizə cəhdləri özünü göstərirdi. Düşmənçiliyi aradan qaldırmaq, sünni-şiə müharibəsinə son qoymaq üçün Nadir Şah Cəfərilik məzhəbini yaymağa çalışsa da məqsədinə nail ola bilməmişdir.*

*Açar sözlər*: Əfşar imperiyası, Osmanlı imperiyası, müharibə, Cəfərilik məzhəbi.

***Giriş***. XVIII əsr Türk, Mərkəzi Asiya və İran tarixində Nadir Şah və onun yaratmış olduğu Əfşar imperiyası (1736-1804) çox böyük rol oynamış və onun tarixinə dair müxtəlif dilli qaynaqlar dövrümüzə qədər gəlib çatmışdı. Nadir Şah 1501-1736-cı illərdə mövcud olmuş Azərbaycan Səfəvi imperiyasına 1736-cı ildə son qoymuş və özünün mənsub olduğu Əfşar sülaləsini hakimiyyətə gətirmişdi. Bu dövr tarixi baxımdan istər Azərbaycan, istərsə də Türkiyə tarixçiləri tərəfindən araşdırılmışdır. Türkiyə tarixçiləri araşdırmalarında Nadir Şah dövründə Osmanlı imperiyasi ilə olan dini münasibətlərə daha çox diqqət yetirmişlər.

Mövzunu araşdırarkən əsasən vətən tarixşünaslığında mövzu ilə əlaqədar aparılmış tədqiqatlara diqqət yetirmək lazımdır. Təbii ki, biz onları bütövlükdə deyil, yalnız bir neçəsinin təhlilini apara bilərik.

Cahangir Hüseyn Əfşar "Azərbaycan Nadir Əfşar dövləti" tarixi əsərini Nadir Şahın 325 illiyinə həmçinin, Əfşar dövlətinin 280 illiyinə həsr etmişdir. Əsər giriş, 5 fəsil, nəticədən ibarətdir. Cahangir Hüseyn Əfşarın əsərinin üçüncü və dördüncü fəsilləri Nadir Şah Əfşarın Osmanlı ilə münasibətlərinə həsr olunmuşdur. Üçüncü fəsil "Muğan qurultayında Nadirin Şah elan olunması. Dini islahat cəhdləri və xarici dövlətlərlə əlaqəsi" [1, s.64] adlanır. Bu fəsil də Nadirin Cəfərilik məzhəbi və Osmanlı imperiyasi ilə olan əlaqələri göstərilmişdir. Dördüncü fəsil "Nadir Şahın hərbi yürüşləri, ordu və donanma quruculuğu" [1, s.92] adlanır. Bu fəsildə isə Nadirin xanlıq və şahlıq dövründə Osmanlı ilə apardığı müharibələr haqqında qısa məlumat verilmişdir.

Nadir Şah iki türk dövlətini birləşdirmək tərəfdarı olmuşdur. Hətta Osmanlı Sultanı I Mahmuda göndərdiyi məktubunda qeyd etmişdir ki, "Əgər siz Cəfəri məzhəbini qəbul etsəniz, mən öz imperiyamı Osmanlı imperiyasi ilə birləşdirərəm". Osmanlı Sultanı I Mahmud Nadir Şaha göndərdiyi cavab məktubunda Cəfəriliyi mənsəb kimi qəbul edə bilməyəcəyini bildirir. Əsərdə göstərilir ki, "Osmanlı sultanının göndərdiyi məktubda Nadir Şahın qaldırdığı əsas məsələ haqqında, yəni Cəfəri məzhəbinin tanınması haqqında hər hansı bir qeyd yox idi. Sultan yalnız Kəbə ziyarətinin bəzi texniki məsələləri haqqında İrandan (Əfşar imperiyasından - S.A.) gələnlərin də az məsrəflə öz ziyarətlərini yerinə yetirməsi haqqında razılığını bildirdi" [1, s.78-79]. Qeyd edə bilərik ki, ümumilikdə, Nadir Şah Osmanlı imperiyasına dəfələrlə elçi göndərib, Cəfəri məzhəbini qəbul etmələri üçün müraciət etsə də, hər dəfə danışıqlar nəticəsiz qalır.

Sözü gedən əsərin üçüncü fəslinin "Nadir Əfşar dövlətinin xarici ölkələrlə əlaqəsi" yarımbaşlığında Nadirin Osmanlılar ilə olan 1742-1746-ci illər müharibəsi haqqında qısa məlumat verilib. Müharibənin gedişində Nadir Şahla I Mahmud arasında 1744 - cü ilin qışında saziş imzalanır. Məzhəb məsələsi bu dəfə də qəbul olunmur. Buna baxmayaraq, Nadir Şah müharibəni dayandırmaqda maraqlı idi, çünki İranda qiyamları yatırıb, yenidən bütün qoşunu Anadoluya yeritmək istəyirdi. I Mahmud belə bir təklif irəli sürdü ki, ərazi məsələlərinə yenidən baxmaq bir halda mümkündür ki, Əfşarlılar məzhəb məsələsində təkid etməsinlər. Nəhayət, "1746-ci il sentyabrın 4 də Kürdanda İran (Əfşar - S.A.) və Osmanlı dövləti arasında rəsmi sülh müqaviləsi bağlandı və İran (Əfşar - S.A.) – Osmanlı ixtilaflarına son qoyuldu" [1, s.82].

Yuxarıda adı çəkilən əsəri təhlil edərkən ən böyük qüsurunun Əfşar dövlətinin türk dövləti kimi deyil, bir İran dövləti kimi təqdim edilməsidir. Görünür belə səhvin yol verilməsinə səbəb istifadə olunmuş ədəbiyyatların əksəriyyətin İran və Rusiya tarixçilərinin əsərlərinin olmasıdır.

Mövzu ilə əlaqədar digər mühüm əsər Mehman Süleymanovun 2010-cu ildə Tehranda nəşr etdirdiyi giriş, səkkiz fəsil nəticədən ibarət olan "Nadir Şah" əsəridir. Əsər Nadir Şahın həyat və hərbi fəaliyyətinə həsr olunmuşdur. Əsərdən müəyyən olur ki, Nadir Şah Dağıstan yürüşündə olan dövrdə iki dəfə Osmanlı sarayından elçilərini qəbul edib. İlk elçilər 1742-ci ildə I Mahmudun məktubunu ona çatdırırlar. Bu məktubda da Nadir məzhəb məsələsi ilə bağlı rədd cavabı alır. Nadir cavab məktubunda bildirir ki əgər təklif qəbul olunsa iki türk dövləti arasında birlik yaranar, əks halda qoşunlarını sərhədə doğru toplayacaqdır. Müəllif qeyd edir ki, "Nadir şah əminliyini bildirirdi ki, Osmanlı ərazisinə daxil olduqdan sonra Osmanlı sarayı onu qonaqpərvərliklə qarşılayacaqdir". Buradan belə qənaətə gəlmək mümkündür ki, əslində Nadir Şah qonaqpərvərlik dedikdə Osmanlı sarayına dolayı yolla müharibənin yaxında olduğunu demək istəmişdi. Yeni müharibə isə Osmanlının nüfuzunu bir qədərdə aşağı sala bilərdi. Lakin yenə də məzhəb fikirini dəyişməyən Osmanlı sarayı növbəti dəfə 1743-cü ildə Əfşar imperiyasına məktub göndərir. Osmanlıların məktubda məzhəb məsələsini qəbul edə bilmədikləri üçün üzrxahlıq edirlər. Çünki Osmanlı Nadir Əfşarla ilə müharibə aparmaq istəmir. Məktubda Nadir Şaha başqa bir təklif irəli sürülür. Şah isə cavabında açıq aşkar Osmanlıları hədələyib bildirir ki, Dağıstan yürüşü başa çatan kimi qoşunu Osmanlı sərhədinə doğru toplayacaqdır. Əsərdə Nadir Şahın döyüş hazırlığı haqqında geniş məlumat verilmiş hətta rəqəmlərin qoşun mirzəsinin sənədlərindən götürüldüyü üçün dəqiq olduğu qeyd olunur. Nadir Şah Əfşarın qoşun dəstələrinə növbə ilə baxış keçirdiyini, yaxın tayfaları bir qoşun növündə toplayıb ümumilikdə, 375 min nəfərlik qoşuna baxış keçirmişdir. Biz rəqəmlərin şişirdilmiş olduğunu deyə bilərik. Amma sənədlər əsasında rəqəmlər təsdiqini tapırsa deyə bilmərik ki rəqəmlər yalnışdır. Onu da qeyd edə bilərik ki, ola bilsin bütün qoşun əsas döyüşçülərdən ibarət deyil onun tərkibində qeyri-döyüşçülər, xidmətçilər, tibb xidmətçiləri və s. ola bilər. Nadir Şah Əfşar Osmanlılar ilə başlayacağı müharibədən əvvəl ərzaq ehtiyatı üçün 3 illik tədarük görülməsini tapşırmışdı.

Əsərdə daha sonra dövrün mənbələri olan Mərvi Məhəmməd Kazımın "Aləm Ara-ye Naderi" və Astrabadi Mirzə Mehdi xanın "Tarix-e Cahanqoşa-ye Naderi" mənbələrindən istifadə olunaraq dəqiqliklə hadisələrin ardıcıllığı göstərilir. Hər iki mənbəyə əsasən qeyd olunur ki, "Mosul qalasındakı Osmanlı Paşaları və qala sakinləri baş verən dağıntıların nəticəsi kimi Nadir Şahın yanına nümayəndələr göndərərək ondan aman istədiklərini xəbər verirlər" [2, s.431]. Mehman Süleymanov qeyd edir ki, Nadir Şah dövrünün tədqiqatçılarından olan L.Lokkart bu hadisənin tam əksinin baş verdiyini, Osmanlı qala hakiminin deyil, Nadirin özünün danışıqlar üçün müraciət etdiyini bildirir. Hətta guya Mosul qalasının hakimi olan Hüseyn paşa da əvvəl danışıqlardan imtina edib sonra razılıq vermişdir. Amma dövrün mənbələrinin daha düzgün olacağını nəzərə alaraq deyə bilər ki, Mehman Süleymanovun Mosul qalası haqqında yazdıqları daha obyektivliyi əks etdirir. Çünki "Aləm Ara-ye Naderi" mənbəsindən istifadə edərək müəllif qeyd edir ki, Nadir Şah Hüseyn Paşanın qızına elçi göndərir və müsbət cavab alır. Hadisə Lokkartın yazdığı kimi olsaydı o zaman Hüseyn paşa nə Nadirin döyüşü dayandırmaq, nə də qızı ilə evlənmək təklifinə müsbət cavab verməzdi. Əsərdə göstərilir ki, Mosul qalasından sonra Nadir Şah Bağdada doğru hərəkət edir və şəhərin hakimi olan Əhməd Paşa ilə görüşüb razılıq əldə etdikdən sonra Qərnə, Ərbil, Kərkük və fəth edilmiş digər qalaları ona təhvil verib Həmədana doğru gedir. "Aləm Ara-ye Naderi" mənbəsində bu danışıqlar haqqında az da olsa məlumat verilmir. Tarix-e Cahanqoşa-ye Naderi" də isə cüzi məlumat verilir" [2, s.432]. Nadir Şah Əfşarın qalaları təhvil verməsinə səbəb kimi yalnız deyə bilərik ki, ola bilsin həmin dövrdə imperiyasının tərkibində mərkəzə qarşı qiyamlar baş verirdi və Nadir Şah həmin qiyamları yatırmaq üçün bir qədər vaxt əldə etməyə çalışıb. Qiyamları yatırdıqdan sonra yenidən müharibəyə qaldığı yerdən davam edən Nadir Şah Osmanlıların təklifi ilə 1746-cı ildə I Sultan Mahmud ilə sülh müqaviləsi imzaladı. Müəllif müqavilənin 3 maddəsinin hər biri haqqında geniş məlumat verir.

Türkiyə tarixşünaslığında Nadir Şahın dövründə Osmanlılar ilə olan münasibətlər haqqında, Nadirin şəxsiyyəti, mənsub olduğu nəsli, hərbi fəaliyyəti, məzhəb və digər məsələlərlə bağlı geniş araşdırmalar aparılmışdır.

Alper Yıldırım 2017-ci ildə "I Mahmud devri Osmanlı-İran ilişkileri" adlı araşdırma aparmışdır. Tədqiqat işinin ilk fəsli I Sultan Mahmuda qədər olan Səfəvi və Osmanlı münasibətləri haqqında yazılmışdır. İkinci fəsil isə bilavasitə son Səfəvi Şahları və Nadirin xanlıq və daha sonra şahlıq dövründə Osmanlılar ilə olan siyasi vəziyyəti əks etdirir.

"II dönem Osmanlı – İran ilişkileri (1736-1743)" adlı yarımbaşlıqda Nadirin Muğanda qurultay toplayıb özünü şah elan etməsi, Şah I İsmayıl dövründən bu yana mənimsənilmiş Şiə təriqətinin Cəfəri təriqəti ilə dəyişdirilməsi haqqında olan məsələlər göstərilib. Alper Yıldırım araşdırmasında daima Əfşar və Səfəvi dövlətlərini İran dövləti kimi göstərmişdir. Çalışmasında qeyd edir ki, "Nadir Şah Əfşarın məzhəb fərqliliklərinə baxmayaraq Osmanlı dövlətinə qarşı düşmənlik etməməsi, Səfəvilərin adət etdiyi kimi digər xəlifələrə xoş olmayan sözlər deməməsi, 5 dəfə namazın qılınmasının vacibliyini deməsi, Hz.Məhəmməd Peyğəmbərin Əhli Sünnətinin yolundan getməsi kimi məsələlər onun əslində məzhəb düşmənçiliyindən uzaq durmasını göstərir" [3, s.67]. Lakin bir Osmanlı Sultanın, eyni zamanda İslam Xəlifəsinin başqa bir məzhəbi qəbul etməsi xalq tərəfindən heç də yaxşı qarşılanmayacaqdır. Belə olduğu halda I Mahmud taxtını itirə bilərdi. Digər tərəfdən Osmanlı sultanı olan I Mahmud əslində Nadirin üzdə xoş niyyətli görünən məzhəb dəyişikliyi fikrinə qarşı idi. Hətta Nadir Şahın məzhəb haqqında narahatedici təkliflərinin olacağı halda yerli xalqdan müharibə etmək üçün fətva almışdı [3, s.77]. Nadir Şah Əfşarın Rusiya ilə Osmanlı əleyhinə ittifaq qurduğunu öyrənən zaman Sultan I Mahmud əslində nə qədər doğru düşündüyünü bir daha özü üçün təsdiqləyir.

Ardıcıl olaraq tədqiqat işində Əfşar - Osmanlı müharibəsinin gedişi, danışıqlar, qalaların ələ keçirilməsi, 1743-1747 Əfsar Osmanlı münasibətləri, Nəcəf toplantısı, Qars qalasının 73 günlük mühasirəsi, İrəvan müharibəsi, sülh müqaviləsi haqqında məlumat verilib.

Müharibənin son günlərində artıq Osmanlı ilə birdən çox cəbhədə savaşmağın ağıllı bir iş olmayacağı qənaətinə gələn Əfşar Şahı öz lehinə sülh müqaviləsi bağlamaq üçün hərəkətə keçir. Nadir Şah Əfşar göndərdiyi məktublardan birində yazır ki, Osmanlı sarayının Cəfərilik məzhəbini qəbul etməsi üçün artıq israrlı olmayacaqdır. Çünki o təklif etdikcə və Osmanlılar qəbul etmədikcə çox günahsız insanın qanı tökülməyə davam edəcəkdi. Yenə də o təklifinin çox məsum və barışcıl bir təklif olduğunu vurğulayırdı. Əfşarlı təklifindən imtina etdiyi üçün əvəzində Səfəvilərin səhvi ucbatından əldən çıxmış İraq və ya Azərbaycan torpaqlarının hər hansı birinin qardaşlıq hüququna əsasən geri verilməsini istəyirdi. Nadir Şah bu yolla halallaşacaqlarını bildirmiş, lakin yenə də torpaqların qaytarılması üçün heç bir məcburiyyətin olmayacağını bildirmişdi. Sultan I Mahmud məktubu aldıqda Nadir Şahın həm Cəfərilik məzhəbi fikirdən daşınmasına, həm də ərazi məsələsini Osmanlıların mövqeyinə buraxdığı üçün barış addımlarına inanmışdı.

***Nəticə***. Türkiyə tarixşünaslığında mövzu ilə aparılan araşdırmaların təhlilindən belə qənaətə gələ bilərik ki, Əfşar dövlətini bir türk dövləti, Nadir Şah Əfşar isə bir türk fatehi kimi deyil, İran dövləti və İran sərkərdəsi kimi göstərilir.

Nadir Şah (1736-1747) və Sultan I Mahmud (1730-1754) dövrü və onlar arasındakı əlaqələr, müharibələr Azərbaycan və Türkiyə tarixçilərinin mövzu ilə əlaqəli ayrı-ayrı əsərlərində, ümumiləşdirilmiş əsərlərdə geniş məlumatlar öz əksini tapmışdır. Bir neçə müəllif və əsər adını qeyd edə bilərik ki, bunlar Ədalət Tahirzadənin "İmperator Nadir Şah Əfşar", Ateş Abdurrahmanın "Osmanlı-İran Siyasi İlişkileri (1720-1747)", Əsədov Firidun Nurullabəylinin "Nadir Şah Əfşar", İsmail Hakkı Uzunçarşılının "Osmanlı tarihi" IV cild birinci bölüm, Uğur Kurtaranın "Yeni Kaynakların işığında Sultan I. Mahmud dönemi Osmanlı İran ilişkileri (1731-1747)", Hatice Akının "XVIII yüzyılın ilk yarısında Osmanli imperatorluğunda islahat çabaları" və s. araşdırmalarıdır ki, bunlardan da qiymətli məlumatlar əldə etmək mümkündür.

## ƏDƏBİYYAT


1. Cahangir Hüseyn Əfşar. Azərbaycan Nadir Əfşar dövləti. Bakı, 2014, 256 s.
2. Mehman Süleymanov. Nadir Şah. Tehran, 2010, 741 s.
3. Alper Yıldırım. I Mahmud devri Osmanlı-İran ilişkileri. (Yüksek lisans tezi). Eskişehir, 2017, 142s.

**САБИНА АЛЫЙЕВА**
*Докторант Бакинского Государственного Университета*

## ОТНОШЕНИЯ НАДИР-ШАХА АФШАРА С ОСМАНСКОЙ ИМПЕРИЕЙ В ИСТОРИЧЕСКИХ ИССЛЕДОВАНИЯХ

Когда Надир-Шах объявил себя шахом в 1736 году и основал государство Афшар, у власти находился Османский султан Махмуд I. Именно в это время началась борьба между двумя турецкими империями за новые территории. Надир-Шах пытался распространить секту Джафари, чтобы устранить вражду и положить конец суннитско-шиитской войне, но потерпел неудачу.

*Ключевые слова*: Афшар империя, Османская империя, война, секта Джафари.

**SABİNA ALİYEVA**
*Doctoral student of Baku State University*

## NADIR SHAH AFSHAR'S RELATIONS WITH THE OTTOMAN EMPIRE IN HISTORICAL RESEARCH

When Nadir Shah declared himself shah in 1736 and founded the Afshar state, the Ottoman Sultan Mahmud I was in power. It was at this time that the struggle between the two Turkish empires for new territory began. Nadir Shah tried to spread the Jafari sect in order to eliminate hostility and end the Sunni-Shiite war, but failed.

*Keywords*: Afshar Empire, Ottoman Empire, war, Jafari sect.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 15 fevral 2022-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 15 mart 2022-ci il.*
*Rəyçilər: t.ü.f.d. Sevinc Qasımova, t.e.d. Anar İsgəndərov.*